TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# Təhsildə Keyfiyyət Təminatı Agentliyinin 2021-ci ildə görülmüş işlərə dair hesabatı

2021

# 2021-ci ildə görülmüş işlərə dair hesabat

**Məktəblərdə Keyfiyyət Monitorinqi**

- *Mart-iyun aylarında Bakı, Sumqayıt, Abşeron, Mingəçevir, Gəncə, Yevlax, Bərdə, Lənkəran, Masallı, Cəlilabad bölgələrində yerləşən 24 məktəbə pilot monitoriqlər aparılmışdır.*
- *Pilot monitorinqlərdən sonra keyfiyyət monitorinqinin 10 nəfərlik daimi heyəti qurulmuş və cari tədris ilinin oktyabr-dekabr ayı ərzində hazırlanan çərçivə sənədinə əsasən Bakı şəhərindəki 32 məktəbdə keyfiyyət monitorinqi həyata keçirilmişdir.*
- *Daimi heyətə İngiltərənin "Tribal Education" şirkətindən dəvət olunan ekspertlər tərəfindən inspeksiyanın aparılmasında beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə 2 həftəlik intensiv təlimlər keçirilmişdir.*
- *TKTA tərəfindən keyfiyyət monitorinqinin aparılması məqsədilə 2021-ci ildə məktəb inspektoru vakansiyası üzrə imtahanlar keçirilmişdir. İmtahanlardan uğurla keçən 27 namizəd təlimləndirilərək, sınaq monitorinqlərə cəlb olunmuşdur*

**İnspektor seçimi:**

- *Ümumi müraciət: 3900-dan çox*
- *Yazılı imtahana dəvət olunan : 451/3200*
- *Müsahibəyə dəvət olunan : 103/451*
- *Müsahibədən keçən : 36/103*
- *Sınaq monitorinqlərdən keçən: 26/36*

**Keyfiyyət Monitorinqi alətləri:**

- *Dərsdinləmələr;*

- *Heyətlə müsahibələr;*
- *Zəruri məktəb sənədlərinə baxış;*
- *Valideynlərlə fokus qrup intervyular;*
- *Müəllim, şagird və valideynlər arasında sorğular;*
- *İnfrastruktur və maddi-texniki bazanın yoxlanılması;*
- *Təhlükəsizlik və sanitariya-gigiyena vəziyyətinə baxış.*